**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# OĞUZ QRUPU TÜRK DİLLƏRİNDƏ ƏŞYA ANLAYIŞI VƏ ONUN İFADƏ VASİTƏLƏRİ

İxtisas: 5710.01 – "Türk dilləri"

Elm sahəsi: Filologiya elmləri

İddiaçı: **Qubad Heybət oğlu Cəbrayılov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim olunmuş dissertasiyanın

**AVTOREFARATI**

**Bakı – 2026**

Dissertasiya işi AMEA Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, dosent
**Zenfira Musa qızı Əliyeva**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Rüfət Əşrəf oğlu Rüstəmov**

filologiya elmləri doktoru, dosent
**Yadigar Vəli oğlu Əliyev**

filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
**Gülxanım Tofiq qızı İsmixanova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.06 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: filologiya elmləri doktoru, professor
**Nadir Balaoğlan oğlu Məmmədli**

Dissertasiya şurasının elmi katibi: filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Yusif qızı Məmmədova**

Elmi seminarın sədri: filologiya elmləri doktoru, dosent
**İlhami Yusif oğlu Cəfərov**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin fonosemantik, morfoloji və funksional tarixinin izlənilməsi çox aktual problemlərdən sayıla bilər. Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin araşdırılmasında sistemli tədqiqatlar az aparılmışdır. Oğuz qrupu türk dillərində əşya anlayışlı leksik vahidlərin kök sözlərinin ümumi inkişaf istiqamətləri tam müəyyənləşdirilməmiş, bu kök morfemlər kompleks şəkildə müqayisəli-tipoloji araşdırmalara cəlb olunmamışdır.

Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin sistem struktur münasibətlərinin öyrənilməsi çox aktual və vacib sayılmalıdır.

Dissertasiyanın mövzusu əşya anlayışlı sözlərin semantik-funksional və morfoloji təkamül tarixinin öyrənilməsi, əşyavilik kateqoriyasının dünya dilçiliyində və türkologiyada müqayisəli və sistemli şəkildə araşdırılmasının tədqiqi nöqteyi-nəzərindən aktualdır.

Bundan əlavə mövzu oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin tematik təsnifatının və etimoloji təhlilinin, yaranma mənbələrinin və üsullarının kompleks araşdırılması baxımından aktualdır. Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin araşdırılması dil və şüurun qarşılıqlı əlaqəsi məsələsini özündə ehtiva edir və bu baxımdan da aktualdır.

Dil təfəkkür normalarını və davranışı müəyyənləşdirilir, əşya anlayışının yaranmasında aparıcı rol oynayır, insanın fərdi həyatına nüfuz edir. Dil əşya anlayışının ifadə vasitəsidir. Dil əlaqələri öz mürəkkəbliyi ilə seçilir. Dil əşya anlayışının ifadə vasitəsi olmaqla yanaşı, həm də təfəkkürə təsir göstərən vasitədir.

Məsələnin belə bir müstəviyə çıxarılması onun dil və əşya kontekstindən, insan və əşya kontekstinə köçürülməsi deməkdir. Əşya və insan münasibətləri milyonlarla dil daşıyıcısının davranış tərzinin psixoloji determinantı, linqvistik təkamülün invariantı kimi çıxış edir. Dissertasiyanın mövzusu bu baxımdan da aktual sayıla bilər.

Dil sistemində əşya probleminin tədqiqi Vilhelm fon Humboldt və Uitnidən sonra F.Sepir, B.Uorf, OYespersin, E.Benvenist, Q.Qiyom və başqaları tərəfindən tədqiq olunmuşdur.

XX əsr dilçiliyində də əşyavilik anlayışı müəyyən qədər araşdırılmışdır. N.N.Amosovanın, N.Ə.Arutyunovanın, V.V.Vinoqradovun, V.A.Zveqinsevin, S.D,Katsnelsonun əsərlərində əşyavilik anlayışına xüsusi diqqət verilmişdir.

Əşya anlayışı türkologiyada da tədqiq olunmuşdur. V.İ.Aslanov, N.A,Baskakov, T.A.Bertaqayev, A.K.Borovkov, Q.Voroşil, N.Z.Hacıyeva, N.S.Dmitriyev, M.Z.Zakiyev, A.A.Zayonçkovski, Quzev V.Q., Eqorov V.Q,, Kondratyev V.Q., Muxammedova Z.V., Nadjip E.N., Fazılov E.İ. və başqalarının əsərlərində əşya problemi kök sözlər müstəvisində araşdırılır[1].

Türk dilçiliyində də əşya probleminə müəyyən qədər toxunulmuşdur. T.Banquoğlunun "Türk qrameri", Ahmet Cavat Emrenin "Türkcenin yapılışı", "Türk lehcelerinin mukayiseli qrameri", A.Caferoğlunun "Türk dili tarihi" əsərlərində əşya anlayışı barədə müəyyən fikirlər söylənilmişdir.

Azərbaycan dilçiliyi tarixində əşya anlayışı barədə maraqlı mülahizələrə Əbu Nəsr Məhəmməd əl-Fərabinin, Əbülhəsən Bəhmənyarın, Şihabəddin Sührəvərdinin, Eynəlquzat Miyanəçinin, Əfzələddin Xunəçinin, Siracəddin Urməvinin, Nəsrəddin Tusinin, İbn Sənanın, İ.Nəsiminin , M.Füzulinin, Xətib Təbrizinin Əbül Fəth Əl-Həmədaninin, İzzəddin Zəncaninin, Hüsaməddin Müzəffərin, İbn Mühənnanın, Hinduşah Naxçıvaninin, A.A.Bakıxanovun əsərlərində rast gəlmək mümkündür.

---

[1] Баскаков, Н.А. Морфологическая структура слова в тюркских языках // Морфологическая структура слова в языках различных типов. – Москва-Ленинград. Высшая школа, – 1963. – с. 76-84; Баскаков, Н.А. Историко-типологическая морфология тюркских языков // – Москва: Наука, – 1979. – с. 34-38; Боровков, А.К. Бадаи ал-лугат. Словарь Тали Имани Гератского // – Москва: Издательство восточной литературы, – 1961. – с. 34-36; Закиев, М.З. Проблемы языка и происхождения волжских татар. – Казань: Наука, – 1986. – с. 21-26; Наджип, Э.Н. Исследования по истории тюркских языков XI-XIV вв. // – Москва-Ленинград: Наука, – 1989. – с. 20-23.

Müasir Azərbaycan dilçilərindən Ə.Dəmirçizadə, S.Cəfərov, F.Cəlilov, S.Əlibəyzadə, T.Hacıyev, K.Vəliyev, M.Hüseynzadə, H.Həsənov, Q.Kazımov, İ.Kazımov, N.Xudiyev, A.Qurbanov, H.Mirzəzadə, Ə.Rəcəbli, Y.Seyidov, B.Xəlilov, N.Məmmədli, B.Məhərrəmli və digər alimlər öz əsərlərində əşya probleminə qismən toxunmuşlar.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti oğuz qrupu türk dillərində əşya anlayışını diaxronik və sinxronik planda ifadə edən dil vahidləridir. Tədqiqatın predmeti oğuz qrupu türk dillərində əşya anlayışı bildirən sözlərin tədqiqidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatımızın əsas məqsədi oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin inkişaf qanunauyğunluqlarını üzə çıxarmaq, bu dil vahidlərinin yaranmasının, təkamülünün və nitqdə reallaşmasının səbəblərini və ifadə vasitələrini müəyyənləşdirmək, bu sözlərdə derivativ semantikanın problemlərini aydınlaşdırmaq və funksional istiqamətlərini izah etməkdən ibarətdir.

Bu məqsəddən irəli gələn vəzifələrin yerinə yetirilməsi zamanı aşağıdakı məsələlər diqqət mərkəzində dayanır:

- Oğuz qrupu türk dillərində əşya anlayışlı leksemlər barədə aparılan araşdırmaların elmi-nəzəri təhlilini vermək, bu mövzunun əsas problemlərini açıqlamaq;
- Dünya dilçiliyində və türkologiyada əşya anlayışı ilə bağlı mövcud nəzəriyyələri təhlil etmək, dəyərləndirmək, təkamül problemlərinə münasibət ifadə etmək;
- Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin morfoloji və fonosemantik inkişaf prosesini izah etmək;
- Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin söz yaradıcılığı prosesindəki tarixi rolunu və əhəmiyyətini göstərmək;
- Oğuz qrupu türk dillərində əşya anlayışlı leksemlərin daxil olduğu kök söz yuvalarının inkişaf istiqamətlərini müəyyənləşdirmək;
- Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin qıpçaq, uyğur-karluk dillərindən fərqli və oxşar cəhətlərini göstərmək, bu dil ailələrindəki fonomorfoloji və leksik-semantik uyğunluqları və fərqləri izah etmək;

- Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin semantik strukturunda təsvir olunan əşyaların və onların obrazlarının təfəkkürdə canlanaraq müəyyən mənalar kəsb etməsi prosesinin özəlliklərini açıqlamaq;
- Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin semantik vəhdətində dil və təfəkkürün maddi aləmə və kommunikasiya prosesinə münasibətinin təzahürünü aşıqlamaq;
- Oğuz qrupu türk dillərində əşya anlayışlı leksik vahidlərin məna fərqləndirici funksiya ilə seçilən paradiqmatik münasibətlərinin və onun əksinə olan, semantik kontrast münasibətlərinə əsaslanan sintaqmatik əlaqələrinin özəlliklərini və fərqlərini izah etmək;
- Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin paradiqmatik və sintaqmatik münasibətlərini izah etmək;
- Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin semantik strukturunda müxtəlif məna tiplərinin: nominativ, məcazi, əsas, düzəltmə, sərbəst, frazeoloji cəhətdən qeyri-sərbəst və s. məna növlərini fərqləndirərək araşdırmaq;
- Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin çoxmənalılığını müasir dilçilik nəzəriyyələri ilə əlaqələndirmək;
- Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin semantik strukturunun inkişafında dil işarəsinin rolunu müəyyənləşdirmək. Dil işarəsinin əşyanı və onun adını deyil, anlayışı və onun akustik obrazını əlaqələndirdiyini qeyd etmək;
- Oğuz qrupu türk dillərində əşya anlayışlı söz köklərinin fonetik baxımdan dəyişməz kompleks olduğunu, müstəqil funksionallaşaraq qrammatik münasibəti ifadə etdiyini, semantik vəhdətdə səciyyələndiyini izah etmək;
- Diaxronik planda kök morfem və affiksin birləşməsindən yaranmış əşya anlayışlı sözlərdə müşahidə olunan polifunksional semantik strukturun özəlliklərini müəyyənləşdirmək;

**Tədqiqatın metodları.** Dissertasiyada müqayisəli-tarixi təsviri və müqayisəli-tipoloji metodlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

- Oğuz qrupu türk dillərində əşya anlayışının tədqiqinə, onun derivativ və leksik aspektlərini özündə ehtiva edən təkamül prosesinə yeni baxış metodoloji əsas kimi müəyyənləşdirilmişdir.

- Dünya dilçiliyində və türkologiyada struktur və semantik paradiqmlərin əşya anlayışı zəminində araşdırılması elmi prioritet kimi qəbul edilmişdir.

- Oğuz qrupu türk dillərində əşya anlayışlı leksemlərdə struktur-semantik istiqamətin inkişaf perspektivləri derivativ sistemin daha dərindən araşdırılmasına zəmin yaratmışdır.

- Təfəkkür normalarını və davranışı müəyyənləşdirən, insanın həyatına nüfuz edən, ifadə vasitəsi olan, öz mürəkkəbliyi ilə seçilən dil sisteminin əşya anlayışı müstəvisində araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

- Milyonlarla dil daşıyıcısının davranış tərzinin psixoloji determinantı, linqvistik təkamülün invariantı olan əşya və insan münasibətlərinin müasir dil nəzəriyyələri baxımından araşdırılır.

- Oğuz qrupu türk dillərində əşya anlayışlı dil vahidlərinin yaratdığı qarşılıqlı əlaqələnmiş, mürəkkəb semantik şəbəkəni, bu şəbəkəyə daxil olan mənaların nitq situasiyası müstəvisində nəzərdən keçirilmişdir.

- Oğuz qrupu türk dillərində əşya bildirən söz müxtəlif məna çalarlarına malik olur və əşyanın adlandırılması ilə bağlı onun əsas əlamətini əks etdirir. Əşya bildirən sözlər nominativ, məcazi, frazeoloji mənaların arasındakı əlaqələri müəyyənləşdirir.

- Əşyaların və onların obrazlarının təfəkkürdə canlanaraq müəyyən mənalar kəsb etməsinin əsas amilləri, dil və təfəkkürün maddi aləmə və kommunikasiya prosesinə münasibəti aydınlaşdırılmışdır.

- Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin struktur-semantik münasibətlərini özündə ehtiva edən, semantik dəyərini formalaşdıran, paradiqmatik və funksionallaşan leksik mənaları ifadə edən söz işarələrinin mətndə reallaşma dərəcəsini göstərən sistem imkanlarının konkret formaları və aktuallaşma üsullarını əks etdirən sintaqmatik əlaqələri müəyyənləşdirilmişdir.

- Oğuz qrupu türk dillərində əşya anlayışlı çoxmənalılığın leksik mənanın polisemik səciyyəsi kimi, iki əsas istiqamətdə — tarixi və sinxronik aspektlərdə inkişafı izah edilir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada Azərbaycan dilçiliyində ilk dəfə olaraq oğuz qrupu türk dillərinin materiallarından

istifadə etməklə əşya anlayışlı sözlər araşdırılmışdır. Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin geniş müqayisəli – tarixi, müqayisəli-tipoloji təhlili verilmiş, bu leksik vahidlərin formalaşma və inkişaf istiqamətləri göstərilmişdir.

Dissertasiyada ilk dəfə olaraq söz yaradıcılığının yeni aspektdə inkişafına şərait yaradan əşya anlayışlı sözlərin nəzəri tədqiqi verilmiş, əşya bildirən leksik vahidlər strukturalist və semantik paradiqmlər müstəvisində araşdırılmışdır.

Dissertasiyada ilk dəfə olaraq əşya anlayışı yalnız nitqə münasibətdə deyil, eyni zamanda təfəkkür və hissi qavramaya münasibətdə araşdırılır. Əşya anlayışı digər qrammatik kateqoriyaların və mətnin köməyi ilə izah olunur.

Dissertasiyada ilk dəfə olaraq əşya anlayışı psixolinqvistik baxımdan araşdırılmış, nominativlik prosesinin semiotik əsasları tədqiq olunmuşdur. Tarixi inkişaf nəticəsində əşyanın adının əsasını fərqli əlamətlər təşkil edə bilər, əşyaya işarə edən hər hansı əlamət zaman keçdikcə əsas olmaya bilər. Əşya əvvəllər hər hansı bir əlamətə görə adlanırdısa, müəyyən vaxt keçdikdən sonra əşya və əlamət birləşir, bir vəhdət halına düşür, əşyanı ifadə edən təsəvvürün tam simvoluna çevrilir.

Dissertasiyada müqayisəli şəkildə oğuz qrupu türk dillərində əşya anlayışlı derivativ semantikanın problemləri araşdırılmış, söz yaradıcılığında struktur-semantik istiqamətin inkişaf perspektivləri tədqiq olunmuşdur.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqatın elmi-nəzəri əhəmiyyəti ondan ibarətdir ki, əşya anlayışlı sözlərin oğuz qrupu türk dilləri kontekstində araşdırılması onun linqvistik mahiyyətinin, tipoloji xüsusiyyətlərinin dərindən öyrənilməsi imkanını yaradır.

Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin tədqiqi struktur dilçiliyin tələbləri və müasir dil nəzəriyyələri baxımından mühüm nəzəri əhəmiyyət daşıyır. Dissertasiyada irəli sürülmüş nəzəri müddəalar, semasiologiya, psixolinqvistika və derivatologiya sahəsində aparılan təhlillər, oğuz qrupu türk dillərinin materialları əsasındakı araşdırmalar üçün nəzəri baza rolunu oynaya bilər.

Oğuz qrupu türk dillərinə, ümumiyyətlə, türkologiyaya aid monoqrafiya, dərslik və dərs vəsaiti yazılarkən tədqiqatdan yararlanmaq mümkündür. Ali məktəblərdə bu mövzuya aid keçilən xüsusi kurslarda, nəzəri dilçilik və türkologiya ilə bağlı mühazirə və seminarlarda tədqiqat işinin nəticələrindən istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın məzmunu, başlıca nəticələri müəllifin beynəlxalq və respublika səviyyəli elmi konfranslarda etdiyi məruzələrdə, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, eyni zamanda xarici ölkələrin beynəlxalq xülasələndirmə və indeksləmə sisteminə daxil olan dövri elmi nəşrlərdə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiyanın mövzusu Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnsitutunun Elmi Şurasında təsdiq edilmiş, koordinasiya şurasında qeydə alınmış, Dilçilik İnstitutunun Türk dilləri şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi:** Dissertasiya giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat və ixtisarlardan ibarətdir. Giriş 6 səhifə (10 497 işarə), I fəsil 40 səhifə (69 968 işarə), II fəsil 34 səhifə (64 235 işarə), III fəsil 30 səhifə (55 133 işarə), nəticə 4 səhifə (6 488 işarə), istifadə olunmuş ədəbiyyat siyahısı 14 səhifə (19 372 işarə) Dissertasiyanın işarə ilə ümumi həcmi 206 321 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilir, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, tədqiqatın aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, tədqiqatın struktur bölmələrinin

ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi göstərilir.

Dissertasiyanın I fəsli **"Oğuz qrupu türk dillərində əşya anlayışının nəzəri problemləri"** adlanır və üç yarımfəsildən ibarətdir. Birinci fəslin birinci yarımfəsli **"Dünya dilçiliyində və türkologiyada əşya anlayışının tədqiqat tarixi"** adlanır. Dünya dilçiliyində əşya anlayışının araşdırılması aktual problemlərdən olmuşdur. Bu barədə fundamental tədqiqatlar XIX əsrə aiddir. XIX əsrdə Ferdinand de Sössür, F.Bopp, Y.Qrimm, A.Şleyxer və başqaları əşya bildirən sözlərin araşdırılması sahəsində mühüm nəzəriyyələr yaratdılar.

Müasir dövrümüzdə Avropa dilçiliyində freym nəzəriyyəsi, universalilər nəzəriyyəsi və s. xüsusi əhəmiyyətə malikdir. Freym nəzəriyyəsinin müsbət cəhəti onun interaktiv leksik şəbəkəsidir. Freym nəzəriyyəsi əşya anlayışlı sözlər arasındakı əlaqəni aktivləşdirərək ciddi semantik təhlilə şərait yaradır, bununla idarə əlaqəsini, obyekt və subyekt münasibətlərini ön plana çəkir.

Dissertasiyanın I fəslinin ikinci yarımfəsli **"Oğuz qrupu türk dillərinin diaxronik təkamülündə əşya anlayışlı leksemlərin fono-morfo-semantik funksionallaşması"** adlanır. Türk dillərinin öyrənilməsi tarixi bu dillərin daşıyıcısı olan xalqların tarixi ilə bilavasitə əlaqədardır. Bu problem ilk növbədə türk dillərinin elmi, müqayisəli-tarixi qrammatikasının və müqayisəli-tarixi etimoloji lüğətinin hazırlanması ilə bağlıdır.

Türk dillərinin müqayisəli-tarixi baxımdan araşdırılması ilk növbədə "Divani lüğət-it türk"ün müəllifi Mahmud Kaşqarlının adı ilə bağlıdır. Türk dillərinin bölgüsünə aid məlumatlara XIII-XV əsr ərəb dilçilərinin əsərlərində də rast gəlinir.

Qədim türk dili həm oğuz, həm qıpçaq, həm də karluq dilləri üçün bir ümumi mənbə olduğuna görə, onun bir çox qanunauyuğunluqları bu dillərin hamısına aiddir. Oğuz qrupuna daxil olan hər bir dilin təkamül tarixi, xalqın ictimai inkişafı və tərəqqi ilə bağlıdır.

I fəslin üçüncü yarımfəsli **"Dildə əşya anlayışının fəlsəfə və liqnvopsixologiya baxımından araşdırılması (Oğuz qrupu türk dillərinin materialları əsasında)"** adlanır. Dilçilik və psixologiya

arasındakı münasibətlər çoxcəhətlidir. Dilin psixologiyası dedikdə nitq aktları ilə bağlı psixoloji proseslərin təhlili nəzərdə tutulur. Bu zaman danışanın və dinləyənin nitqi başa düşməsi əsas götürülür. Dilin psixologiyasında dil faktları psixoloji qanunauyğunluqlarla izah olunur. Dilin psixologiyası "xalqların psixologiyası" və ya "etnik psixologiya" ifadələri Avropa alimləri M.Latsarius və Q.Steyntalın adları ilə bilavasitə bağlıdır.

Avropa alimi A.Şleyxerin fikrincə, "*dillərin təkamülü təbiətin inkişafına bənzəyir. A.Şleyxer qeyd edir ki, dillər tarixi dövr ərzində inkişaf etmir. Tarixi dövrün əvvəlinə qədər dillər öz morfoloji inkişafının yüksək pilləsinə çatmışlar. Oğuz qrupu türk dillərində danışan xalqların tarixində eyni inkişaf yolu müşahidə olunur. Bu baxımdan dillərin tarixi, xalqların tarixi ilə əlaqədar olaraq araşdırılmalıdır*"[2].

Rus alimi E.F.Tarasov dildə gedən dəyişmələrin qanunauyğunluqlar barədə yazırdı: *"Dildə gedən səs dəyişmələri mexaniki olduğu üçün heç bir istisnaya yol verməyən qanunauyğunluqlar əsasında gedir"*[3].

Dil mədəniyyətin və cəmiyyətin məhsuludur. Psixoloji faktor mədəniyyətin səciyyəvi xüsusiyyətlərindən biridir. İnsan ruhu fərd olaraq fərdi psixologiyanın tədqiqat obyektidir. Lakin insan eyni zamanda ictimai varlıqdır, cəmiyyətdə yaşadığı üçün onun psixologiyası ictimai və sosial səciyyə daşıyır.

A.Meye və Ferdinand de Sössürdən xeyli əvvəl psixoloji sosializmin əsası Kazan dilçilik məktəbinin banisi İ.A.Boduen de Kurtene tərəfindən qoyulmuşdur. İ.A.Boduen de Kurtene yazırdı: *"Dilin mahiyyəti tamamilə psixidir. Dilin mövcudluğu və inkişafı tamamilə psixi qanunauyğunluqlarla şərtlənir"*[4].

Nitqin əksinə olaraq, dil nitq fəaliyyətinin sosial elementidir. Dil müəyyən bir ictimai kollektivə məxsus olan xəzinədir. Dil hər bir beyində mövcud olan qrammatik sistemdir.

---

[2] Шлейхер Август. https://ru wikipedia/org/wiki.

[3] Тарасов, Е.Ф. Тенденции развития психолингвистики // – Москва: Наука, – 2012. – с. 21-24.

[4] Бодуен, де Куртене. Избранные труды по языкознанию // – т. I. – Москва: Учпедгиз, – 1963. – с. 37-37.

A.N.Leontyevin fikrincə *“anlayışlar sisteminə əsaslanan nitq psixoloji fəaliyyət statusu daşıyır. Nitqin təsiri psixoloji müstəqil akt kimi qəbul olunur”*[5].

Nitq zamanı oğuz etnosuna mənsub olan hər bir fərd ətraf aləmlə məzmun planı vasitəsilə əlaqə saxlayır. Məna sahəsi məzmun planının mücərrəd formasıdır. Məna sahəsi psixoloji baxımdan professor M.Əsgərovun tədqiqatlarında xüsusi yer tutur. Alim yazır: *“Diskurs və nitq mətn yaratma şərtləri və mexanizmi baxımından bir-birindən əsaslı şəkildə fərqlənir”*[6].

Nitqin psixoloji baxımdan mənimsənilməsi insanı bütün həyatı boyu müşayiət edir. Dilçilərin fikrincə, bu psixolinqvistik akt çoxaspektli dil hadisəsidir.

Əşya anlayışının insan tərəfindən dərk olunması, dərk olunmuş məlumatın yadda saxlanması və tələb olunduqda yaddaşdakı çoxsaylı məlumatlar arasından məhz lazım olanın seçilməsi və ondan müvafiq şəkildə istifadə edilməsi müəyyən mərhələlərlə baş verir. Əşyanın dərk olunması semantik fəlsəfə baxımından çox mürəkkəb bir prosesdir. Dil hər hansı bir əşya modelini, hər hansı bir reallığı əks etdirir. Bu əşya modeli, bu reallıq dil sistemində öz rəngarəng əksini tapır. Semantika ümumi əşya işarəsidir. Əşya anlayışının ümumi işarə nəzəriyyəsi məntiqin sintaktik və semantik baxımından araşdırılmasına əsaslanır. Semantik fəlsəfəyə əsaslanan işarə nəzəriyyəsi əşya anlayışını əsas təhlil obyektinə çevirir. Bu təhlil obyekti dil işarəsinin hərtərəfli tədqiqinə əsaslanır. Dildə işarə nəzəriyyəsi ilk növbədə insan amili ilə əlaqədardır.

Dissertasiyanın ikinci fəsli **“Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin paradiqmatik və sintaqmatik münasibətləri”** adlanır və üç yarımfəsildən ibarətdir. İkinci fəslin birinci yarımfəsli **“Əşya anlayışı və məna”** adlanır. Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin leksik paradiqmatikası dilin nominativ-klassifikasion vasitələrindən olan dil vahidlərinin struktur-semantik münasibətlərini özündə ehtiva edir. Paradiqmatika əşya anlayışlı

---

[5] Леонтьев, А.А. Слово в речевой деятельности // – Москва: Наука, – 1965. – с. 91-96.

[6] Əsgərov, M. Linqvopsixologiya və ya dilin psixologiyası // – Bakı: Elm və təhsil. – 2011. – s. 91-94.

sözlərin semantik dəyərini göstərir, sintaqmatika isə onların mətndə reallaşma dərəcəsini, sistem imkanlarının konkret formalarını və aktuallaşma üsullarını əks etdirir. Beləliklə, oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin leksik mənalarının bu iki aspekti mücərrəd və konkret, sistem və normativ reallaşan əlaqələr kimi qarşılaşdırılır.

Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin sistem münasibətləri müəyyən istiqamətdə funksionallaşan qarşılaşdırmalar (oppozisiyalar – Q.C.) müstəvisində reallaşır. Leksik vahidlərin əsasən mənafərqləndirici funksiyası ilə seçilən paradiqmatik münasibətlərin əksinə olaraq, sözlərin sintaqmatik əlaqələri, semantik kontrast münasibətlərinə əsaslanır və ikili funksiya daşıyır.

1) Sözlərin sistem mənalarını ifadə edir.

2) Sistem münasibətləri başqa mətndə yeni mənalar yarada bilir.

Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin paradiqmatik münasibətlərindəki qarşılaşdırmalarda fərqli əlamətlər: ümumi və empirik əlamətlər ayrı-ayrı sözlərə aid edilir. Əşya anlayışlı hər bir sözün paradiqmatik əlaməti digər söz mənası ilə qarşılaşdırılan zaman paradiqmatik strukturdan çıxaraq dəyişə bilər; sintaqmatik əlamət isə sistemdə mövcud olan mənadan əlavə mətn daxilində yeni kontekstual məna kəsb edə bilər. Bu baxımdan leksik paradiqmatika sintaqmatika ilə ziddiyyət təşkil edir. Yəni əşya anlayışlı sözün leksik mənasının paradiqmatik xüsusiyyəti bilavasitə dilə aiddirsə, sintaqmatik münasibəti mətnə aid olur.

Əşya anlayışlı sözlərin ikili təbiəti əsasında konkret əşyaların dil daşıyıcıları tərəfindən mənimsənilməsi, şüur vasitəsilə dərk olunması təfəkkürdə ilkin və təkrar obrazların yaranması mürəkkəb və çoxfunksiyalı bir prosesdir. Əşya anlayışlı sözlərin semioloji prinsip əsasında tədqiqi onların məna strukturunun hərtərəfli izahına imkan yaradır. Əşya anlayışlı sözlər öz semiotik strukturunun bütün istiqamətləri üzrə denotativ və siqnifikativ baxımdan təhlil edilir. Bu isə əşya anlayışlı leksik vahidlərin onomasioloji tədqiqinin əsasını təşkil edir.

M.V.Nikitin "Лексическое значение в слове и словосочетании" ("Sözdə və söz birləşməsində leksik məna") adlı əsərində əşya

anlayışına belə tərif verir: *“Əşya anlayışı sözlə ifadə olunmuş konseptdir”*[7].

Dissertasiyanın II fəslinin ikinci yarımfəsli **“Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin semantik strukturunda çoxmənalılıq”** adlanır.

Əşya anlayışlı sözlərin çoxmənalılığı leksik mənanın polesemik səciyyəsi kimi iki əsas istiqamətdə: tarixi və toksonomik aspektlərdə inkişaf etmişdir. Taksonomik aspektdə çoxmənalılığın əsas problemi sözün semantik dəyişmələrinin kllassifikasiyasına əsaslanırdı. Bu barədə V.A.Zveqinsev “Семасиология” (“Semasiologiya”); “Глоссематика и лингвистика” (“Qlossematika və linqvistika”); “Язык и общественный опыт” (“Dil və ictimai təcrübə”) adlı monoqrafiyalarında dəyərli fikirlər söyləmişdi. İ.V.Arnoldun “Проблема закономерностей семантических изменений в истории заподноевропейских семасиологических теорий” (“Qərbi Avropa semasioloji nəzəriyyələri tarixində semantik dəyişmələrin qanunauyğunluğu problemi”) adlı monoqrafiyasında bəzi Hind-Avropa dillərində əşya bildirən sözlərin semantik strukturunda tarixən müşahidə olunan dəyişikliklər və onların çoxmənalılıq yaratmasından bəhs olunur[8].

O.S.Axmanova “Очерки по общей и русской лексикологии” (“Ümumi və rus leksikologiyası barədə oçerklər”) adlı monoqrafiyasında qeyd edir ki, “*eyni bir sözdə bir-biri ilə əlaqəli bir neçə mənanın mövcud olması, sözün ilkin mənasının təkamülü və dəyişməsi nəticəsində baş verir*”[9].

Avropa alimi Vayss dil sistemində semantik təkamülün bəzi qanunauyğunluqlarını tədqiq etmişdir. Əşya anlayışlı sözlərin məna strukturundakı semantik daralma və genişlənmə proseslərinin ilkin araşdırılması da D.Vayssa məxsusdur. Leksik semantikanın, xüsusilə

---

[7] Никитин, М.В. Лексическое значение в слове и словосочетании // – Владимир: Просвещение, – 2014. – с. 29-32.

[8] Арнольд, И.В. Проблема закономерностей семантических изменений в истории заподноевропейских семасиологических теорий // – СПб. – Наука, – 2004. – с. 41-46.

[9] Ахманова, О.С. Очерки по общей и русской лексикологии // – Москва: Наука, – 2012. – с. 274.

çoxmənalılığın problemləri barədə Q.Paulun fikirləri maraqlıdır. Q.Paul "Принципы истории языка" ("Dil tarixinin problemləri") əsərində əşya anlayışlı sözlərin məcazi mənalarının məcazi və assosiativ aspektlərini işıqlandırmışdır.

Əşya anlayışlı polisemantik sözlərin məna təkamülünün səbəblərini rus dilçiləri A.A.Potebnya və L.A.Pokrovskaya bir qədər fərqli aspektdən izah edirdilər. Əşya bildirən sözün polisemantik strukturunun təkamülündə əsas amil emosional faktordur və bu sözlər öz sintaqmatik dairəsinin tələbləri əsasında dəyişir. Beləliklə, bu mövqeyi, bu nəzəriyyələri əşya anlayışlı sözlərin leksik mənasının funksional baxımdan araşdırılmasının ilkin rüşeymi hesab etmək olar.

A.A.Potebnya ilk dəfə əşya anlayışlı, konkret mənalı sözün semantik strukturunda obyektiv və subyektiv, "uzaq" və "yaxın" mənaların qarşılıqlı münasibətini araşdırmışdır. A.A.Potebnya əşya anlayışlı sözlərin leksik mənasına tamamilə yeni aspektdən yanaşaraq, onların çoxmənalılığını inkar etmişdir. Alim yazırdı: *"Sözlərin mənası dilçiliyin predmetini təşkil edir və əşya anlayışlı leksemin xarici – səsli formasından fərqlənən daxili formasını ifadə edir"*[10].

A.A.Potebnya sözlərin linqvistik və ekstralinqvistik məzmununu fərqləndirərək, onlar arasında müəyyən sərhədin olduğunu iddia edirdi. Alim "*yaxın*" məna dedikdə, əşyaların nominativ mənasını, bilavasitə əşya ilə əlaqəli, onu əks etdirən mənasını nəzərdə tuturdu. "*Uzaq*" məna dedikdə isə əsasən metaforik, mücərrəd mənanı nəzərdə tuturdu[11].

Nominativ məna müasir dilçilikdə həm müasir, həm də tarixi proses kimi başa düşülür. İlkin nominativliyə aid edilən əşya anlayışlı sözlərin yaranma tarixi müasir dil daşıyıcısı üçün anlaşılmaz ola bilər. Ətraf aləmin ictimai-tarixi baxımdan mənimsənilməsi zamanı insan əşyaları dərk edir, onları adlandırır,

---

[10] Потебня, А.А. Из записок по русской словесности // – Киев: Вышейшая школа. – 2010. – с. 18-21; Потебня, А.А. Мысль и язык. В кн.: Эстетика и поэтика // – Москва: Наука. – 2016. – с. 19-23.

[11] Потебня, А.А. Мысль и язык. В кн.: Эстетика и поэтика // – Москва: Наука. – 2016. – с. 29-34.

yeni anlayışlar formalaşdırır, onlar arasındakı əlaqə və münasibətləri qavramağa çalışır.

Müxtəlif insanların şüurunda eyni əşyalar haqqındakı təsəvvürlər fərqli olsa da, ictimai-tarixi təcrübəni və əşya aləminin eyniliyi oğuz qrupuna daxil olan dillərin daşıyıcılarının qarşılıqlı anlaşma və ünsiyyətinə şərait yaradır.

Əşya adlarının formalaşmasında üç heterogen mahiyyət qarşılıqlı əlaqədədir. Bunlardan birincisi: əşyaların adlandırılmasında denotat səviyyəsi ifadə olunur. İkinci mahiyyət qnoseoloji planda müşahidə olunur, bu zaman əşya insan beynində simvola – obraza çevrilir. Üçüncü mahiyyət adlandırmadır, bu zaman ad yaranır: səslərin və ya hərflərin müəyyən qayda ilə düzülüşü mərhələsi gəlir.

İkinci nominativlik mənaların köçürülməsi planında: yəni tarixi diaxronik planda rus dilçiliyində hərtərəfli öyrənilmişdir. Bu baxımdan V.V.Vinoqradovun, A.M.Smirnitskinin, O.S.Axmanovanın, A.A.Ufimsevanın, D.N.Şmelyovun və b. əsərlərini xüsusi qeyd etmək lazımdır.

İkinci nominativliyin səciyyəvi xüsusiyyətlərindən biri – sözlərin nominativ funksiyalarının qeyri-müstəqilliyi və yalnız müəyyən nominativ mətn çərçivəsində funksionallaşa bilməsidir. İkinci nominativliyin əsas formalaşmasından biri də metaforadır.

Metafora – adlandırma zamanı dil formasında oxşarlıq əsasında məna köçürülməsini ifadə edən ikinci nominativlikdir. Metaforanın mənanın məcazlaşmasını ifadə etmək xüsusiyyəti hələ qədim yunan elmində Aristotel tərəfindən qeyd edilmişdir[12].

Filosofun fikrincə, konkret əşya haqqında danışarkən metaforik təfəkkür onun qeyri-adiliyi və oxşarlığını izah etməyə çalışır. Məhz bu baxımdan metaforanın yeni məna yaratma gücü izah olunur. Metafora əşyanın müəyyən əlamətlərini digər əşyanın və ya obyektin oxşar xüsusiyyətləri ilə müqayisə edərək yeni nominativ forma yaradır; sözün əsas denotativ mənası ətrafında yeni konnotasiyalar, yeni konnotativ mənalar yaratmağa müvəffəq olur.

---

[12] Аристотель. Поэтика. Античные теории языка и стиля // – СПб., – Москва: Наука, – 2016. – с. 74-76.

Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin metaforikləşməsi – əlamətlərin oxşarlığı və analogiyasına əsaslanan məcazlaşma üsuludur. D.N.Şmelyov əşya bildirən sözlərin çoxmənalılığı problemini ənənəvi dilçiliyin qanunlarına sadiq qalaraq semantik vəhdət prinsipindən izah edir. Onun fikrincə, *"əşya bildirən sözlərin polisemik strukturu ümumi semantik assosiasiyalar əsasında formalaşır"*[13].

D.N.Şmelyov əşya anlayışlı sözlərin leksik semantikasına sistem əlaqələri – paradiqmatik və sintaqmatik münasibətlər aspektindən yanaşırdı. Sistem əlaqələri və çoxmənalılıq baxımından A.M.Smirnitskinin və M.V.Nikitinin də fikirləri diqqətəlayiqdir. Söz mənalarının semantik əlaqə tiplərini, mənaların sözdaxili əlaqələrini tədqiq edən M.V.Nikitin bu prosesləri universal linqvistik qanunauyğunluqlarla əlaqələndirir. Onun fikrincə, bu əlaqələr universaldır. M.V.Nikitin mənaların sözdaxili əlaqələrini konseptlərlə izah edərək iki qrupa bölür:

1) İmplikasion əlaqələr (qarşılaşdırma əlaqələri – Q.C.)
2) Klassifikasion əlaqələr (fərqləndirmə əlaqələri – Q.C.)

M.V.Nikitinin fikrincə, *"implikasion əlaqələr əşya anlayışlı sözlərin semantik strukturunda müşahidə olunur"*[14]. Bu əlaqələrin konkret növləri müxtəlifdir. Əşyanın düzəldiyi material və həmin materialdan alınmış məhsul: bütöv və hissə; əşya və əlamət; proses və nəticə.

Klassifikasion əlaqələri M.V.Nikitin əşyalar, onların əlamətləri və obyektiv aləmdəki münasibətləri ilə səciyyələndirir. Alimin fikrincə, məhz bu əlaqələr və münasibətlər əşya anlayışlı çoxmənalı sözlərin polisemantik quruluşunu təşkil edir.

II fəslin üçüncü yarımfəsli **"Əşya anlayışlı sözlərin semantik strukturu və dil işarəsi"** adlanır. Əşya anlayışlı sözləri və ümumiyyətlə dildə mövcud olan bütün leksemləri ifadə edən dil işarəsinin vahid və ikili xarakteri barədə dilçilər arasında fikir müxtəlifliyi

---

[13] Шмелёв, Д.Н. Очерки по семасиологии русского языка // – Москва: Наука. – 1964. – с. 38-43.

[14] Никитин, М.В. Лексическое значение в слове и словосочетании // – Владимир: Прогресс, – 2014. – с. 37-42.

vardır. Bəzi dilçilər dil işarəsinə materialist, bəziləri isə idealist mövqedən yanaşmışlar.

Ferdinand de Sössür dil sistemini ardıcıl və məqsədyönlü araşdıran bir dilçi idi. Onun fikrincə, *"dil işarəsi ikili xarakter daşıyır"*[15]. V.Z.Panfilov və V.M.Solntsev dil işarəsinin birtərəfli səciyyə daşıdığını iddia edirdilər[16].

A.S.Melniçuk və B.A.Serebrennikov "*dil işarəsinin ikili xüsusiyyət daşıdığını, maddi, eyni zamanda ideal vahid olduğunu*"[17] qeyd edirdilər. İşarə nəzəriyyəsi elm tarixində dilçilik baxımından deyil, ümumi semiotik nöqteyi-nəzərdən araşdırılmağa başladı. Ümumi semiotikada isə işarə anlayışı dil işarəsi anlayışından fərqlənir. Riyazi rəqəmlər və düsturlar, musiqi notları, yol işarələri də işarə sisteminə daxil edilir.

Dil işarələri insanın psixoloji fəaliyyəti, təfəkkürü ilə bilavasitə bağlıdır. Dil işarələri çoxfunksiyalı və mürəkkəb sistemin – dilin ifadə formalarıdır. Bizi əhatə edən aləmdəki əşyalar insan təfəkküründə əks olunur və dərk edilir. Rus alimi T.P.Lomtev yazır: *"Sözlər bizim fikirlərimizi ifadə edir. Lakin onları dil işarəsi adlandırmaq olmaz. Onlar ətraf əşyalar aləminə münasibətdə əksetmə statusunda dayanır"*[18]. Dil işarəsini ya material, ya da ideal ünsür adlandıran T.P.Lomtevin fikirləri ilə razılaşmaq çətindir.

Söz işarəsinin maddiliyi danılmazdır. Lakin onu yalnız məna ifadəsi ilə, yəni yalnız bir funksiya ilə məhdudlaşdırmaq olmaz. Bu söz işarəsinin birtərəfli izahı olardı. Belə olduqda isə söz işarəsi digər mexaniki semiotik işarələrlə (kodlar, notlar, rəqəmlər, yol işarələri) və s. ilə qarışdırıla bilər.

---

[15] Фердинанд, де Соссюр. Труды по языкознанию // – Москва: Прогресс, – 1977. – с. 96-102.

[16] Панфилов, В.З. Философские проблемы языкознания (гносеологические аспекты). – Москва: Наука. – 2014. – с. 37-40. Солнцев, В.М. Язык как системно-структурное образование // – Москва: Наука. – 2008. – с. 12-16.

[17] Мельничук, А.С. О роли мышления в формировании структуры языка // – Москва: Наука. – 2014. – с. 42-46; Серебренников, В.А. Развитие человеческого мышления и структуры языка // – Москва: Наука. – 2011. – с. 57-59.

[18] Ломтев, Т.П. Принцип отражения и его значение для теоретической грамматики // – Москва: Наука. – 2010. – с. 58-61.

Söz işarəsi ikili səciyyə daşıyaraq ətraf aləmdəki əşya və hadisələri ümumiləşdirmə xüsusiyyətinə malikdir. Söz işarəsinin ikili xarakteri ondan ibarətdir ki, əşya anlayışının maddi surətini ideal obraza çevirərək, insan şüurunda canlandırır. Danışanın dediyi söz dinləyənin yaddaşındakı obrazı canlandırır və maddiləşdirir. Söz kompleksi və onun işarə etdiyi məna arasında psixoloji əlaqə yaranır. Zaman keçdikcə bu psixoloji əlaqə insan beynində həkk olunur, yaddaşın ifadə vasitəsinə çevrilir. Ana dilində danışan insan sözləri onların məna strukturunun fərqinə varmadan sərbəst tələffüz edir və başa düşür. Sözləri deyərkən biz onların forması barədə fikirləşirik. Söz işarəsi dildə əsrlərlə mövcud olub invariant əsaslı vahidə çevrilir. Söz işarəsi – səs kompleksi və ideal obrazın vəhdətidir.

P.V.Kopninin fikrincə, *"təmas və təsəvvür olmasa, əşyalar aləmi barədə heç bir anlayış mövcud deyildir"*[19].

L.S.Vıqotski *"əşya bildirən sözlərin leksik mənasını siqnifikasiyanın nəticəsi hesab edir"*[20].

Dilin semioloji baxımdan təhlili nəzəriyyəsi ilk dəfə Avropa dilçiliyinə Ferdinand de Sossür tərəfindən gətirilmişdir. Sossür dil sistemini işarə sistemi kimi funksionallaşan vəhdət hesab edirdi. Onun fikrincə, dilin əsas xüsusiyyətləri məhz işarə sistemində ifadə olunur. Sossür nəzəriyyəsinin məhdudluğu onun dil sistemini ideyaların ifadəsi kimi görməsi idi.

V.Fon Humboldtun təsiri ilə Ferdinand de Sossür də *"dili xalqın ruhu, tale tərəfindən insanlara verilmiş töhfə"*[21] hesab edirdi.

Dissertasiyanın III fəsli **"Oğuz qrupu türk dillərində əşya bildirən sözlərin struktur inkişafı"** adlanır və üç yarımfəsildən ibarətdir. III fəslin birinci yarımfəsli **"Oğuz qrupu türk dillərində əşya anlayışının sadə strukturlu leksik vahidlərlə ifadəsi"** adlanır.

Oğuz qrupu türk dillərində əşya bildirən sözlərin struktur inkişafı dəfələrlə türkoloqların diqqətini cəlb etmiş, çoxsaylı dissertasiyaların və monoqrafiyaların mövzusuna çevrilmişdir. Bu araşdırma-

---

[19] Копнин, П.В. Философские идеи и логика // – Москва: Наука. – 2013. – с. 102-107.

[20] Выготский, Л.С. Психология // – Москва: Наука. – 2005. – с. 42-50.

[21] Гумбольдт, В. Труды по языкознанию / В.Гумбольдт. – Москва: Прогресс, –1984. – с. 52-56

larda əşya anlayışlı leksemlərin sözyaradıcı formalarının semantikasına xüsusi fikir verilir.

Oğuz qrupu türk dillərində sadə strukturlu leksemlər dedikdə kök sözlər nəzərdə tutulur. Birköklü sözlər oğuz qrupu türk dillərinin leksikasının əsasını təşkil edir. Aqqlütinativ quruluşlu oğuz qrupu türk dillərinin retrospektiv təhlili türk kök sözlərinin konservativliyini sübut edir. P.M.Melioranskinin fikrincə, *"türk dillərinin leksikasının tarixi çox çətin bir təkamül prosesidir"*[22].

Oğuz qrupu türk dillərində əşya bildirən söz köklərinin təkamülünün hansı istiqamətdə getməsi barədə dilçilər arasında mübahisə gedir. Bəzi dilçilər əşya anlayışlı kök sözlərin strukturunda inkişafın birhecalılıqdan çoxhecalılığa, bəziləri isə çoxhecalılıqdan birhecalılığa doğru getdiyini təkid edirlər.

İlk baxışdan birhecalı görünən kök tarixi-etimoloji araşdırmalar nəticəsində ya tərkib hissələrinə bölünə bilər, ya da hər hansı struktur dəyişikliyin və ya bitişmənin məhsulu ola bilər. Əşya bildirən hər hansı söz kökü sinxron planda birhecalı, diaxronik planda isə söz yaradıcılığı mərhələsini keçmiş iki və ya çoxhecalı leksem ola bilər.

Q.İ.Ramstedtin fikrincə *"tam konkret olaraq belə bir fikir söyləmək çətindir ki, türk dillərində sözün strukturu kök və şəkilçidən ibarətdir. Türkologiyada kök məfhumu bəzən bölünməz səs kompleksi kimi müəyyənləşdirilir"*[23].

Oğuz qrupu türk dillərində əşya anlayışlı hər bir kök söz əsasən iki konstruktiv elementdən – kök və şəkilçidən ibarətdir. Flektiv dillərdən fərqli olaraq iltisaqi dillərdə kök real mənanı özündə ehtiva edərək, müstəqil söz kimi səciyyələnir. Oğuz qrupu türk dillərində kök sözlərin səciyyəvi xüsusiyyətlərini qeyd edir. Oğuz qrupu türk dillərində əşya anlayışlı kök sözlərin fonetik strukturu üçsəsliliyi ilə seçilir. Bu dillərdə köklər əsasən bağlı hecalardan ibarətdir. Əşya anlayışlı üçsəsli kökmorfemlərin ilkinliyi və tarixi reallığı baxımından E.V.Sevortyanın, A.N.Kononovun, A.M.Şerbakın, A.Zayonçkovskinin fikirləri maraqlıdır.

---

[22] Мелиоранский, П.М. Араб-филолог о турецком языке // – Москва: Наука. – 1984. – с. 42-46.

[23] Рамстедт, Г.И. Введение в алтайское языкознание // – Морфология, – Москва: Издательство иностранной литературы, – 1957. – с. 31-34.

Oğuz qrupu türk dillərində kökmorfem ən qədim və tarixi baxımdan real dil vahididir. Dil sistemində müşahidə olunan fono-morfosemantik dəyişikliklərə baxmayaraq, kökmorfem türk dillərində öz stabilliyini qoruyub saxlamaq iqtidarındadır.

Dissertasiyanın III fəslinin ikinci yarımfəsli **"Oğuz qrupu türk dillərində əşya bildirən sözlərin derivativ inkişafı və daha mürəkkəb strukturlu leksik vahidlərlə ifadəsi"** adlanır. Oğuz qrupu türk dillərində söz yaradıcılığı daima türkoloqların diqqətini cəlb etmiş, çoxsaylı dissertasiya və monoqrafiyaların mövzusu olmuşdur. Bu proses yalnız dilçilik baxımından deyil, ədəbi dillərin təkamülü nöqteyi-nəzərindən böyük maraq doğurmuşdur. Bu əsərlərdə sözyaradıcı formaların semantikasına xüsusi diqqət yetirilir və söz yaradıcılığı nitq hissələri nəzəriyyəsi ilə əlaqəli şəkildə araşdırılır.

Türk dillərində kök sözlərin derivativ funksionallığını və söz yuvası yaratmasını B.Məhərrəmli belə izah edir: *"İlkin söz köklərinin bərpa edilməsində söz yuvası metodunun tətbiqinin mühüm əhəmiyyəti vardır. Bu metod iki prinsipə əsaslanır: fonetik və semantik"*[24].

Oğuz qrupu türk dillərində əşya anlayışlı düzəltmə sözün mənası kök morfemin bir mənası əsasında yaranır. Əgər sözyaradıcı kök çoxmənalı və polifunksionaldırsa, o zaman hər məna ilə yeni anlamlı leksem formalaşır.

Diaxronik planda hər bir tarixi dövr öz aktual mənaları ilə səciyyələnir. Bir dövrdə aktual olan sememlər illər keçdikcə öz aktuallığını itirib arxaikləşə bilər. Lakin bəzən kök morfemlərin bu arxaikləşmiş və itmiş mənaları düzəltmə sözlərin tərkibində saxlanıla bilər. Bu baxımdan qədim dövrlərdə öz yazısı və zəngin ədəbiyyatı olan türk dilləri gec inkişaf etmiş türk dillərinə nisbətən tədqiqatçıya daha zəngin məlumat verir.

Dissertasiyanın III fəslinin üçüncü yarımfəsli **"Oğuz qrupu türk dillərində əşya anlayışlı leksemlər kök söz yuvaları müstəvisində"** adlanır. Oğuz qrupu türk dillərində əşya anlayışlı

---

[24] Məhərrəmli, B.B. Türk dillərində isim köklərində leksik-semantik inkişaf / B.B.Məhərrəmli. – Bakı: Elm və təhsil, – 2012. – s. 41-42.

sözlərin kök söz yuvalarının araşdırılması böyük maraq doğurur. Belə tədqiqat oğuz qrupu türk dillərində əşya semantikalı leksemlərin tarixi inkişaf yolunu izləməyə imkan yaradır.

Əşya anlayışlı sözlərin kök söz yuvaları oğuz qrupu türk dillərinin təkamül tarixini izləməyə, bu dillərdəki leksemlərin praformalarını bərpa etməyə kömək edir. Oğuz qrupu türk dillərində kök söz yuvalarının semantik-funksional və struktur təkamülü türkologiyada, demək olar ki, öyrənilməmişdir. Kök söz yuvalarının inkişafı yalnız morfologiyanın deyil, ümumiyyətlə, dil sisteminin araşdırılmasında çox önəmlidir.

Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin qrammatik mərkəzləşmə konsepsiyası əsasında araşdırılması böyük məna kəsb edir. Adı çəkilən dillərdə əşya semantikalı sözlərin kök söz yuvaları paradiqmatik sistem xarakterlidir, şaxələnmiş məna və formaların vahid şəbəkəsidir. Oğuz qrupu türk dillərində kök söz yuvalarının əsasında təkhecalı kök morfemlər durur. Türk dillərində kök söz yuvalarının zirvə komponentini təşkil edən sözlər əsrlər keçdikcə dəyişməz qalır.

Görkəmli alman dilçisi V.Fon Humboldt söz kökləri barədə yazır: *"Səs forması dilin fikir ifadə etmək üçün yaratdığı formadır, onu karkas kimi də təsəvvür etmək olar, dil onun üzərində qurulur. Dillərin fərqi səs formasına əsaslanır. Dilin səs forması kök sözlərə əlavə edilən məntiqi kateqoriyaların daxil olduğu sözyaradıcılığı qanunlarını əhatə edən qrammatik formadır"*[25]. Dildə oxşar kök sözlərin bir qismi ilkin dövrdə səs təqlidi əsasında yaranmışdır.

Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin kök söz yuvalarında derivativ motivasiya problemləri böyük maraq doğurur. Əşya anlayışlı sözlərin kök söz yuvaları öz stabilliyi ilə səciyyələnir və vahid qrammatik mərkəzləşmə xüsusiyyəti ilə seçilir. Kök söz yuvasının hər bir yeni yaranmış komponenti kateqoriyalar sırasına daxil edilir. Bu sıralanmada ümumi kateqorial məna mühüm yer tutur. Kök söz yuvalarının yaranmasında iki əsas problem xüsusi statusa malikdir.

---

[25] Гумбольдт, В. Труды по языкознанию // – Москва: Прогресс, – 1984. – с. 58-61.

Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin kök söz yuvalarının semantik nüvəsini təşkil edən kök morfemlərin çoxsaylı variantları mövcuddur. Bu variantlar çoxşaxəli olub, həm fonoloji, həm də morfoloji faktorlar əsasında izah oluna bilər.

Eyni zamanda bu qanunauyğunluqlar oğuz qrupu türk dillərinin ümumi leksik, fonoloji və qrammatik qanunauyğunluqları ilə və hər bir türk dilinin fərdi xüsusiyyətləri ilə səciyyələnir. Bunlar mənşəcə eyni köklərin dillərarası və dildaxili, ədəbi dildə və dialektlərdə işlənən çoxsaylı variantlarıdır.

Azərbaycan dilində mövcud olan kök söz yuvalarının araşdırılması və inkişafı barədə professor H.Mirzəyevin fikirləri maraqlıdır. Alim yazır: "*Dilçilikdə söz köklərinin, xüsusən eyni söz yuvalarından təşəkkül tapan sözlərin izahı problem məsələlərdən biridir. İstər türkoloqlar, istərsə də dilçilər bu problemlə demək olar ki, az məşğul olmuş və ya maraqlanmamışlar. Bir sözlə dilçiliyimizdə bu problem lazımi şəkildə öz əksini tapmamışdır*"[26].

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqat prosesində əldə edilmiş elmi müddəalar aşağıdakı şəkildə ümumiləşdirilmişdir:

1. Dil təfəkkür normalarını və davranışı müəyyənləşdirir, əşya anlayışının yaranmasında aparıcı rol oynayır, insanın fərdi həyatına nüfuz edir. Dil əşya anlayışının ifadə vasitəsidir. Dil əşya anlayışının ifadə vasitəsi olmaqla yanaşı, həm də təfəkkürə təsir göstərən vasitədir.
2. Əşya və insan münasibətləri milyonlarla dil daşıyıcısının davranış tərzinin psixoloji determinantı, linqvistik təkamülün invariantı kimi çıxış edir. İnsanın dil bacarıqları yalnız dil vahidlərindən istifadə etməklə məhdudlaşdırıla bilməz. Nitq prosesində bu vahidlər qarşılıqlı əlaqələnmiş, mürəkkəb semantik şəbəkə yaratmış olur.
3. Əşya bildirən hər bir söz öz məna çalarları ilə birlikdə müəyyən anlayışı bildirir. Bu anlayışlar isə öz növbəsində nominativlik, yəni əşyanın adlandırılması ilə bağlıdır. Hər bir ad əşyaya onun ən vacib əlaməti əsasında verilir. Əşyanın adı onun müəyyən bir

[26] Mirzəyev, H. Azərbaycan dilində feil / H.Mirzəyev. – Bakı, Maarif, –1986. – s. 15-17.

hissəsinin təsviri olur. Ad əvvəlcə tam olmur, çünki nominativlik (adlandırma) əşyanın yalnız ən qabarıq əlamətini əks etdirir. Zaman keçdikcə dəyişən əşyalara söz müəyyən sıra ilə, növbə ilə uyğunlaşır.

4. Tarixi inkişaf nəticəsində əşyanın adının əsasını başqa əlamətlər də təşkil edə bilər, əşyaya işarə edən bir əlamət indi əsas olmaya da bilər. Əgər əşya əvvəllər hər hansı bir əlamətə görə adlanırdısa, müəyyən vaxt keçdikdən sonra əşya və əlamət birləşir, bir vəhdət halına düşür, əşyanı ifadə edən təsəvvürün tam simvoluna çevrilir.
5. Sözün ilkin mənşəyi yox, onun uzun zaman işlədilməsi mənanı müəyyənləşdirir. Bu baxımdan sözlər işarə etdikləri əşyaların tarixinə heş bir ümumiliyi, ortaqlığı olmayan öz xüsusi fonetik və morfoloji qanunları əsasında dəyişir.
6. XIX əsrdə Avropa dilçiliyində böyük hay-küyə səbəb olan işarə nəzəriyyəsini neçə əsr əvvəl Azərbaycan dilçiləri və filosofları Nəsirəddin Tusi və Hüsam Müzəffər kəşf etmişdilər.
7. Azərbaycan alimi İbn-Mühənnanın əşya, söz və işarə barədə çox dəyərli fikirləri vardır. XIX əsrdən Ferdinand de Sössür nəzəriyyəsindən neçə-neçə əsr əvvəl İbn Mühənna yazırdı: *"Dil nəinki öz-özlüyündə vacib və qeyri-adi ünsiyyət vasitəsidir. Dil həm də işarələrdə özünü büruzə verir. Dildə ixtiyarilik, təbiilik və vaciblik bir-biri ilə əlaqədardır. Dil nəinki öz-özlüyündə vacib və qeyri-adi ünsiyyət vasitəsidir, o həm də işarələrin toplusudur"*.
8. Türk dillərinin araşdırılması problemi iki aspektdə aparılmışdır. Birinci aspekt ayrı-ayrı türk dillərinin faktlarının və qanunauyğunluqlarının araşdırılmasına əsaslanan induktiv metodla bağlıdır. İkinci aspekt isə türk dilləri təkamülünün ümumi istiqamətlərinin sintezinə əsaslanır və deduktiv metodla səciyyələnir.
9. Dil sistemində leksika daha dəyişkəndir. Qrammatik struktur isə daha stabil olub, demək olar ki, cüzi dəyişir. Dilxarici amillər leksik və fonetik sistemlərə güclü təsir edərək daxili inkişaf qanunlarına təkan verir. Oğuz qrupu türk dillərinin təkamül tarixində xalqların daimi miqrasiyası, şərqdən qərbə köç etməsi,

islam dininin qəbulu, monqolların hücumu əsas dilxarici amillər sayıla bilər.

10. Əşyaların və onların obrazlarının təfəkkürdə canlanaraq müəyyən mənalar kəsb etməsi prosesi iki amillə şərtlənir: 1) dil və təfəkkürün maddi aləmə münasibəti; 2) dil və təfəkkürün kommunikasiya prosesinə münasibəti. əşyanın semantikasından danışarkən biz onu fəlsəfənin və məntiqin dilçilik aspektlərindən təcrid edə bilmərik, çünki bu aspektlər problemin elmi vəhdətini təşkil edir.
11. Əşyaların dərk edilməsi prosesində, onun mahiyyətində üç əsas amil mövcuddur: əşya – dil – təfəkkür. Dil sistemi dilxarici faktorlardan asılı olmayaraq maddi aləmi əks etdirir. Dildə gedən dəyişikliklər real həyatda mövcud olan inkişafın əksidir.
12. Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin leksik paradiqmatikası dilin nominativ – klassifikasion vasitələrindən olan dil vahidlərinin struktur-semantik münasibətlərini özündə ehtiva edir. Leksik sintaqmatika isə əşya anlayışlı sözlərin funksionallaşan leksik əlaqələrini ifadə edir. Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin leksik mənalarının bu iki aspekti mücərrəd və konkret, sistem və normativ reallaşan əlaqələr kimi qarşılaşdırılır.
13. Flektiv dillərdə əşya anlayışı dilin qrammatik sistemi ilə bilavasitə əlaqədar olaraq öyrənilirdi. Yəni, əşya anlayışı leksik və qrammatik mənaların vəhdətində götürülürdü. Oğuz qrupu türk dillərinin daxil olduğu aqqlütinativ dillərdə isə əşya anlayışı sözdüzəldici və sözdəyişdirici qrammatik vasitələrdən o qədər də asılı olmayıb əsasən söz kökləri ilə ifadə oluna bilər. Məsələn, “don”, “üzük”, “qab” və s. kimi əşya anlayışlı sözlərdə leksik və qrammatik ünsürlərin vəhdəti bu dil vahidlərinin tədqiqinin morfoloji əsasını təşkil edir. Bu isə sözün ikitərəfli təbiəti ilə dil və ekstralinqvistik faktorlarla əlaqədardır.
14. Metafora – adlandırma zamanı dil formasında oxşarlıq əsasında məna köçürülməsini ifadə edən ikinci nominativlikdir. Metafor əşyanın müəyyən əlamətlərini digər əşyanın və ya obyektin oxşar xüsusiyyətləri ilə müqayisə edərək yeni nominativ forma yaradır. Sözün əsas nominativ mənası ətrafında yeni konnotasiyalar, yeni

konnotativ mənalar yaratmağa müvəffəq olur. Əşya anlayışlı sözlər öz əsas mənalarından uzaqlaşaraq metaforikləşir və yeni semantik çalarlar yaradır.

15. Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlər ikili səciyyə daşıyan dil işarələridir. Onlar əşya və hadisələri ümumiləşdirmə xüsusiyyətinə malikdir. Bu dil işarələrinin ikili xarakteri ondan ibarətdir ki, onlar əşya anlayışının maddi surətini ideal obraza çevirərək, insan şüurunda canlandırır.
16. Oğuz qrupu türk dillərində əşya anlayışlı sözlərin kök söz yuvalarnın araşdırılması böyük maraq doğurur və çox önəmlidir. Əşya anlayışlı sözlərin kök-söz yuvalarının tədqiqi oğuz qrupu türk dillərinin təkamül tarixini izləməyə, bu leksemlərin praformalarını bərpa etməyə kömək edir.

**Tədqiqat işinin əsas məzmunu aşağıda çap olunmuş tezis və məqalələrdə öz əksini tapmışdır:**

1. Dildə əşyavilik anlayışı // – Bakı: Dil və ədəbiyyat, – 2016. № 4, – s. 93-95.
2. Dildə əşya anlayışının tədqiqat tarixi (I məqalə) // – Bakı: Tədqiqlər jurnalı, – 2018. № 2, – s. 144-152.
3. Oğuz qrupu türk dilləri-türk dilləri ailəsinin bir hissəsidir // – Bakı: Filologiya məsələləri jurnalı, – 2018. № 13, – s. 123-129.
4. Əşya anlayışlı sözün leksik mənası və polisemiyası // – Bakı Slavyan Universiteti, – Bakı: Elmi əsərlər. Dil və ədəbiyyat seriyası, – 2018. № 2, – s. 51-56.
5. Dildə əşya anlayışının fəlsəfə və linqvopsixologiya baxımından araşdırılması // – Bakı: Filologiya məsələləri jurnalı, – 2018. № 18, – s. 94-100.
6. Əşya anlayışı məna strukturunun bir komponenti kimi // – Bakı: Pedaqoji universitetin xəbərləri Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, – 2018. – c. 66. № 4,– 25-33 s.
7. Qaqauz və türkmən dillərinin təkamül tarixi və səciyyəvi xüsusiyyətləri // Bakı: Bakı Qızlar Universiteti, Elmi əsərlər jurnalı, – 2018. № 4,– 3-9 s.
8. Предметность и его средства выражения в тюркских языках огузской группы // – Москва: Научно-практический»

журнал, Современная наука: актуальные проблемы теории и практики. Серия: Гуманитарные науки, – декабря 2018. – № 12, – с. 141-145.

9. Dil dərslərində əşya anlayışlı sözlərin izahına dair // Azərbaycan Dillər Universitetinin Təhsil fakültəsinin təşkil etdiyi “Xarici dillərin tədrisinin aktual problemləri” mövzusunda Respublika Elmi-Praktiki Konfransı. – Bakı: – 06-07 dekabr, – 2018, – s. 17-18.

10. Türkmən dilinin inkişaf mərhələlərinin müəyyənləşdirilməsində rast gəlinən problemlər // VI Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumu, – Bakı, – 13-15 iyun 2024,– s. 193-197.

11. Сенмантическое изменения слов в тюркских языках огузской группы // – Екатеринбург: Наука и Техника. Мировые исследования материалы международной научно-практической конференции, – 13 февраля 2020.–с. 90-92.

12. Gagavuz ve Türkmen Dillerinin Evrimsel Tarihi // I. Azerbaijan Uluslararası Sosyal ve Beşeri Bilimler Kongresi – Bakü, – 06-08 Ağustos, - 2024, – s. 36-43.

13. Türk dili tərcümə mətnlərində uzun cümlələrin qısaldılma üslubu // Görkəmli türkoloq-alim, professor Rüfət Rüstəmovun 80 illik yubileyinə həsr olunmuş “Müasir Türk Dünyası: Şərqşünaslıq Araşdırmalarında Yeni Elmi Yanaşmalar” mövzusunda Respublika Elmi Konfransı. – Bakı, – 28 noyabr, – 2025, – s. 64-66.

14. Механизмы семантических изменений в огузских тюркских языках в контексте анализа художественного текста // «Актуальные проблемы филологии», посвященной 100-летию со рождения Мусы Магомедова: Материалы Международной научной конференции, посвящённой памяти доктора филологических наук, профессора Мусы Магомедова. Махачкала, Дагестанский государственный университет, 29 апреля 2026 г. – Махачкала, — с. 128-132

Dissertasiyanın müdafiəsi 22 Sentyabr  2026-cı il tarixində saat 11:00 – da  Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.06 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1143, H.Cavid prospekti 115, V mərtəbə, AMEA Nəsimi adına Dilçilik İnstitutu.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 30 İyun  2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 12.06.2026
Kağız formatı: 60x84 16/1
Həcm: 39 546 işarə
Tiraj:100